Füzuli YAVƏR

# BERMUD ÜÇBUCAĞI



TELEVİZİYA PYESİ

**Qapı. Bir qədər açıq.**
**Yazıçı onun qarşısında donub qalıb. Bilmir qapını döysün, ya elə-belə keçsin içəri. Necəsə bir maraqla, ehmallıca otağa boylanır. Alt paltarında güzgü qabağında dayanıb çiyninə dağılmış saçlarını darayan Qadın sərt hərəkətlə geri dönür və birbaşa Yazıçının üstünə qaçır, onu qucaqlayır, əllərilə onun kürəklərini sığallayır, başını sinəsinə qısaraq için-için ağlayır.**

**QADIN –** Nəhatət... nəhayət ki gəlib çıxdın. Mən bilirdim, mən inanırdım ki, sən gələcəksən. Mütləq gələcəksən. Axı sən məni tək qoyub hara gedə bilərdin? Sən gələcəkdin. Mən səni hər saat, hər an gözləyirdim. Gündüzlər işə getmirdim ki, birdən sən gələrsən, məni evdə görməzsən. Gecələr... gecələr gözümü yummurdum ki, birdən sən gələrsən, xəbərim omaz. Həhayət ki... nəhayət ki, gəlib çıxdın. Demə, mənim bütün şübhələrim əbəsmiş...

**Yazıçı çaşqın halda onu özündən ayırır. Qadın bir müddət donub baxır. Sonra boğuq qışqırıqla qorxa-qorxa geri çəkilir.**

**YAZIÇI –** Sakit olun... sakit olun... *(Yaxınlaşıb onu sakitləşdirmək istəyir.)*

**Qadın daha bərkdən qışqırır, yenə geri çəkilir. Yazıçı donub qalır, təəccüblə, qorxuyla baxır.**

**QADIN –** Siz kimsiniz?! Bura nəyə gəlmisiniz?
**YAZIÇI –** Qorxmayın... Mən xatalı adam deyiləm. Pis niyyətlə gəlməmişəm. *(Baxışları həkimin portretinə sataşır, başı ilə işarə edərək.)* Ondan ötrü gəlmişəm...
**QADIN –** *(Bir an şəklə baxır, yenə Yazıçının üstə qaçır .)* Necə?! Onun yanından gəlmisiniz?
**YAZIÇI –** *(Pauzadan sonra.)* O, hardadır ki?..
**QADIN –** *(Pərişan baxışlarla baxır, başını bulayır ki, bilmirəm. Özü üçün pıçıldayırmış kimi.)* Aman Allah, siz necə də ona oxşadınız...

**Yazıçının nəzərləri portretdə ilişib qalır.**

**          **
**

Həkimin başqa bir şəkli canlanır. Bu şəkil lövhədədir və lövhədə eyni ölçüdə müxtəlif adamların da şəkilləri var. Kadr genişlənir. Ilk əvvəl "LÖVHƏSİ" sözü oxunur, sonra "AXTARIŞ".
Axtarış lövhəsi fonunda tamaşanın adı yazılır:

**B E R M U D   Ü Ç B U C A Ğ I**

Bir az adi, bir az qeyri-adi, bir az lirik,
bir az detektiv bu əhvalat bizim günlərdə
xarici ölkələrin birində baş verir. Hansı ölkədə,
hansı şəhərdə - məlum deyil. Bunun fərqi də yoxdur.
Bermud üçbucağı hamı üçün açılmaz tilsimdir.

TİTRLƏR:

Y A Z I Ç I - ..............
POLİS ŞEFİ - ..............
BAŞ HƏKİM - ..............
BİRİNCİ QIZ - ..............
İKİNCİ QIZ - ..............
Q A D I N - ..............

**          **
**

Titrlər çəkilir, axtarış lövhəsi aydınlaşır.
Yazıçı lövhə önündə durub baxır.
Lövhədəki portretlərdən bir neçəsi ekranda canlanır.

YAZIÇININ SƏSI - Qırx yaşı var, alçaqboyludur, dəfələrlə adam öldürmüşdür, qorxulu canidir. *(Digər portret haqqında.)* Həbsxanadan qaçmışdır, pasport qeydiyyatı yoxdur, oğruluqla, qarətlə məşğuldur. *(Növbəti portret haqqında.)* Dəfələrlə az yaşlı qızlara qarşı zorakılıq göstərmişdir. Fərdi xüsusiyyətləri: ortaboy, suyuşirin...

Yazıçının özünü görürük.

Və sairə və sairə... *(Pauza.)* Bu lövhənin önündən heç vaxt laqeydliklə keçə bilmirəm. Hər dəfə beləcə ayaq saxlayıb uzun müddət bu ələkeçməz yarasalara baxıram. Narahatlığım artır, ürəyim həyəcanla döyünür. Deməli, bu parazitlər, insan cəlladları hələ də hardasa öz keyflərindədir, bizim polis

idarəsisə burda mürgüləməkdə... Eh, cəhənnəmə ki, özləri bilərlər, mənim nəyimə lazım?.. Lakin *(Ekranda həkimin və daha bir oğlanın portreti canlanır.)* bu iki nəfər ki var... nə deyim, çox düşündürür məni. Görəsən, hardadı indi onlar? Yox, elə bilməyin onlar da canidir, quldurdur, yox, yox... Onlar təmiz adamlardılar.
Bax, bu birincisi həkimdir, yadıma gəlir, mən haçansa bir dəfə onun qəbulunda da olmuşam, onun bacarığı, səmimiyyəti hələ də yadımdadır. Bu oğlanı isə tanımıram. Belə deyirlər ki, həkimin dostudur. Günlərin birində həkim evdən çıxıb, bir daha qayıtmayıb. Dostu onu axtarmağa başlayıb və... özü də itib. Hm, qəribədir...

**Yazıçını görürük.**

Bu lövhənin qarşısında ayaq saxlayanlar da həmişə mənim üçün maraq doğurur. Həkimin nə çox tanışı varmış... Görünür, pasientləri olublar... İndi hamı onun yoxluğuna təəssüflənir, ürəkdən acıyır. Bu qədər dostu, tanışı qoyub adam hara gedə bilər?
Çox düşündüm, götür-qoy etdim, nəhayət bu qənaətə gəldim ki... onlar yaşamırlar daha, iz azdırmaqdan ötrü isə... Ürəyimə damanı özüm-özümə etiraf edirəm, inana bilmirəm, inanmağım gəlmir, heç cür inanmağım gəlmir. Lakin intiutsiyam heç zaman məni aldatmır... Onlar yoxdur daha... Bu fikir qaranlıq gecədə uzaqdan görünən işartı kimi məni özünə çəkir, bu işığa getmək bilirəm nə qədər qorxuludur, amma nə edəsən, hər bir vicdanlı, namuslu adam mütləq o işığa getməlidir, getməyib dayana bilməz...

** **
**

**Yazıçının iri plandakı sifəti tədricən başqa epizoda keçir. Indi onun gözləri bərəlmiş halda irəli baxır, üzünü həyəcan təri bürüyüb.**
**Qarşıda sifətində maska, əlində tapança tutmuş naməlum bir adam dayanıb.**
**Yazıçının dodaqları titrəyir.**
**Kamera sərt hərəkətlə sağa dönür. Yenə bir naməlum adam, onun əlləri elə bil kimisə boğur.**
**Kamera bir də hərəkət edir. Daha bir naməlum adam. Onun əlində bıçaq var.**
**Yazıçı qorxudan donub qalıb.**
**SOS sirenası və getdikcə həyəcanla səslənən musiqi ritmləri. Üçüncü naməlum adam bıçağı nəyəsə vururmuş kimi irəli uzadır.**

** **
**

**Naməlum adamın bıçağı bilyard qiyinə çevrilir və qiy diyircəyə zərbə endirir. Diyircək gedib başqa bir diyircəyə dəyir və ikinci diyircək stolun yarığından çıxıb tora düşür.**

**Polis şefinin məmnun sifəti.**
**Sonra baş həkim. İndi o oynayır.**
**Diyircəklər bir-birinə dəyir, gah stolun o başına qaçır, gah bu başına qaçır, nəhayət tora düşür.**
**Gah polis şefi, gah baş həkim məmnunluqla gülür, lakin çəkiliş səssiz olduğundan heç nə eşidilmir.**
**Sonra baş həkim saatına baxır, asılqandan pencəyini götürüb gedir.**
**Polis şefi təkbaşına oynayır.**
**Yazıçı daxil olur.**

ŞEF – Xoş buyurmusunuz, cənab yazıçı. Olmaya yenə sizinkilərdən kimsə içib...

YAZIÇI – Yox, bu dəfə başqa iş üçün gəlmişəm.

ŞEF – Yəqin təzə romanınız üçün cinayət materialı axtarırsınız.

YAZIÇI – *(Gülümsünür.)* Buna oxşar bir şeydi... İstirahətinizə mane olmadım ki?

ŞEF – Əksinə. Elə bir adam axtarırdım ki mənimlə... *(Stolu göstərir.)* oynasın. *(Daşları üçbucağa yığır.)* Bilmirəm, bu oyunu kim icad edib, ona əhsən deyərdim. Oyunlardan heç biri bunun qədər mənalı deyil. Mən buna oyun deməzdim, həyatın özüdü, deyərdim. Hə, başlayaq?

YAZIÇI – Bacarmıram.

ŞEF – Niyə?

YAZIÇI – Heç bir diyircəyi vurub çıxarda bilmirəm.

ŞEF – Aa... məsələ də burasındadır. Gərək bunu hamı bacarsın. Çətin heç nə yoxdur. Ağacı götürürsən əlinə, bax belə, bir zərbə! *(Vurur.)* Görürsən, bir daş gedib neçə daşın arasına çaxnaşma salır. Bundan sonra daşlar elə bil bir-birinə qənim kəsilir, bu vurub onu çıxartmaq istəyir meydandan, o vurub bunu çıxartmaq istəyir. Daşlar azaldıqca, meydan boşaldıqca baxıb ləzzət alırsan. Roman yazmaq, yuxusuz gecələr keçirmək, onu çap etdirmək, satmaq, ee, boş, mənasız işdir. Çünki bu baş-ayaq əzabdır, işgəncədir. Bir dəfə yaşayırıq dünyada. Ömür – bir gecədir, həyat - ətli, canlı bir məşuqə. Səhərəcən onun qucağında keyf çəkmək lazımdır, ləzzət almaq lazımdır ondan.

YAZIÇI – *(Yarımtəbəssümlə.)* Mənim məşuqəm – yazmaqdır. Siz kömək edin mənə, qoy məşuqəm sevinsin.

ŞEF – Sizi nə maraqlandırır?

YAZIÇI – Axtarış lövhəsi. Ordakı adamlar. Onlar indi hardasa neçə-neçə insanın həyatına qəsd edir, sizin sözünüzlə desək, məşuqələrini alırlar əlindən, siz isə...

ŞEF – Nə edə bilərik, cənab yazıçı? Ölkə böyük bir düzən, insan kiçik bir iynə, axtar tap görüm, necə tapırsan. Elə şeylər var ki... o bizim qüvvəmiz xaricindədir.

YAZIÇI – Sizi başa düşürəm. Əlbəttə, bu yaramazlar haçansa, hardasa mütləq ələ keçəcəklər. Bir az geci-tezi var. Siz hardan biləsiniz ki, onlar hansı cəhənnəmdə gizləniblər. Ölkə böyük, şəhərlər çox, qəsəbələr çox... Lakin mən itkin düşmüş həkim haqqında, onun yoxa çıxmış dostu haqqında soruşmaq istəyirdim. Onlar ki, bizim şəhərdəndilər. Onların ki, bu şəhərdə qohumları var, dostları var. Doğrudanmı, bütün axtarışlar faydasız olub?

ŞEF – *(Ciddiləşir.)* Cənab yazıçı, siz mənim yaralı yerimə toxunursunuz... Ömrümün yarıdan çoxunu bu sahədə keçirtmişəm, inanın, belə müəammalı bir işə heç vaxt rast gəlməmişəm. *(Pauza. Birdən.)* Hə, yaxşı tapmısınız, əla süjetdir, gözəl bir gənc, bacarıqlı bir həkim birdən-birə qeyb olur. Doğrudan da, maraqlı roman yazmaq olar bu barədə.

YAZIÇI – Hə, birdən-birə qeyb olur. Neyçün? Hara gedir? Başına nə gəlir? Bu suallara cavabı hardan tapım?

ŞEF – Bunları biz də bilmirik. Uydurun da bir şey. Siz ki bunu yaxşı bacarırsınız.

YAZIÇI – Uydurmaq olar. Lakin həkim haqqında, onun dostu haqqında müəyyən şeyləri öyrənmək lazımdır.

ŞEF – Hardan öyrənəcəksiniz? Həkim bu şəhərə gəlmə idi. Onun bu şəhərdə heç kimi yoxdur. Dostu da onun kimi. Əlbəttə, axtarış zamanı biz onların bəzi yaxın adamlarını tapmışdıq. Onlar da bir şey bilmirlər. Yaxşıca işləyirmiş, əli də gətirirmiş. Birdən-birə isə...

YAZIÇI – Yaxın adamları dedikdə siz kimləri nəzərdə tutursunuz? Mən onlarla görüşüb söhbət etmək istərdim.

ŞEF – Həkimin arvadı var, şəhər kənarındakı kiçik qəsəbələrin birində yaşayır. Ikinci oğlanın isə nişanlısı qalıb. Həkimin arvadı ilə görüşməyi məsləhət bilmirəm, çünki... başdan bir az, o söz... Düzdü, bir qadın kimi pis deyil, heç bir kişi ona laqeyd qala bilməz. O özü də bunu yaxşı bilir.
Ərilə eyni klinikada işləyirmiş, lakin ərinin qeybindən sonra daha işə çıxmır, öz xəlvət yuvasında deyəsən... yaxşı bazar açıb. O sizi də bir müştəri hesab edə bilər. Həkimin dostunun nişanlısı isə... başqa cür məxluqdur, sevgilisinin yoxa çıxması onu bərk sarsıdıb. Istəsəniz mən sizi onunla görüşdürə bilərəm. Bizdə hardasa onun telefonu olmalıdır. Lakin bir şərtlə, gərək öz məqsədinizi gizlədəsiniz, bu barədə bir kəlmə də... Bu cür hərəkət etmək sizin xeyrinizə olar. Sizi ona bir pərəstişkar kimi təqdim edərəm. O, belə şeyləri xoşlayır.

YAZIÇI – Həkimin iş yoldaşları ilə söhbətləriniz olubmu?

ŞEF – Əlbəttə. Heç bunsuz keçinmək olar? Ən ətraflı məlumatı klinikanın baş həkimi verib. Onlar üç nəfər idi: o, arvadı və bir də klinikanın indiki baş həkimi. Bir yerdə oxuyublar. Hər üçü eyni vaxtda həmin klinikada işə başlayıb.

YAZIÇI – Baş həkimlə münasibəti necə imiş?

ŞEF – Necə olasıymış, dostluq münasibəti. Tələbə ikən hər ikisi həmin qızı sevirmiş. Qız isə bu birisinə ərə gedir. Bununla belə, dostluqları yenə davam edirmiş.
Baş həkim sonradan başqa biriylə evlənir, hətta iş elə gətirir ki, ilk uşaq üstə onun arvadı cərrahi əməliyyata məruz qalır, bu əməliyyatı isə dostuna həvalə edir. Çünki, o, baş həkim olsa da dostunun bacarığını özününkindən üstün qiymətləndirirdi.
İstəsəniz baş həkimlə də görüşə bilərsiniz. O, sizə hər şeyi ətraflı söyləyə bilər. Lakin yenə həmin şərtlə ki, heç kim, heç nə başa düşməməlidir... Axı sizin heç kimi ittiham etməyə, yersiz sual-cavaba tutmağa ixtiyarınız yoxdur.

YAZIÇI – Aydındır... Amma insan iynə deyil, ölkə, dünya nə qədər böyük olsa da o itib bata bilməz.

ŞEF – Siz nəyə işarə vurmaq istəyirsiniz?

**YAZIÇI** – Heç nəyə... Demək istəyirəm ki, insan iynə kimi cansız deyil, əgər onun yoxluğundan narahat olurlarsa, əzab çəkirlərsə - gərək o bunu başa düşsün, "Mən burdayam!" deyib qışqırsın.

**ŞEF** – Əgər insanın vicdanı, namusu varsa...

**YAZIÇI** – Sonuncu bir sual: ümumi ehtimal nəyədir?

**ŞEF** – Dəqiq demək olmaz bunu. Hər halda bütün mülahizələr, fərziyyələr bu nəticəyə gəlib çıxır ki, həkim qaçıb, xaricə - başqa bir ölkəyə qaçıb. Burda çoxlu pul qazanıb, sonra tüpürüb arvadına da, işinə də, dostlarına-tanışlarına da, başqa şəhərdə yaşayan valideynlərinə də, bir sözlə... vətəninə. Özü qaçdığı azmış kimi, dalınca da başqa bir adamı çəkib aparıb. Uf!... Belə yaramazların ucbatından bizlər nə qədər əzab çəkirik. Kaş əlimdə əsaslı dəlillər olaydı, dar ağacına çəkərdim belə oğul doğub böyütmüş ata-ananı...

Yazıçı təəccüblə baxır.

** **
**

LAL KADRLAR.
Küçə. Axtarış lövhəsi. Yazıçı aralıdan durub baxır.
Lövhə önündə adamlar. Bir neçə qız həkimin portreti önündə. Təəssüflə başlarını bulayırlar. Nəsə danışa-danışa aralanırlar.
Həkimin dostunun məhzun baxışları.
Baş həkimin qəbulxanası. Baş həkim məşğuldur. Ona zəng edirlər. Məmnun halda dəstəyi götürür, lakin nə eşidirsə sifəti ciddiləşir.
Sonra Birinci qızın yatağı. Qız uzanıb parnoqrafik jurnala baxır.
Telefonun işığı yanıb sönür. Zəngi eşidir, dikəlir, çiyninə dağılmış saçlarını geri atır, maqnitafonun düyməsini geri burur, dəstəyi götürür.
Yazıçı fikirli halda siqaret tüstülədir, gözləri yol çəkir.
Sonra polis şefi. Telefonda kiminləsə danışır. Sifəti qayğılıdır.
Sonra daha bir nömrə yığır...

** **
**

Restoran.
Lal kadrları müşaiət edən musiqi burda davam edir.
Oynayanlar da var.
Stollardan birinin arxasında Yazıçı və Birinci qız. Qız siqaret çəkir.

**YAZIÇI** – Nə üçün belə qara eynək taxırsınız? Sifətinizə yaraşmır.

**QIZ** – Gözlərimi gizlədirəm. Mənim gözlərimdə sifətimə bu iyrənc eynəkdən daha çox yaraşmayan bir kədər var. Başqalarına sirayət etməsin deyirəm.

**Içirlər.**

**YAZIÇI** – Qəribədir... Bəzən yazılarımda belə səhnələr təsvir etməli oluram. Oğlan bir qız haqqında düşünür, düşünür, onunla görüşməyə can atır və nəhayət günlərin birində gəlib bu "Ağ ayı" restoranında otururlar beləcə...

**QIZ** – Burda qəribə nə var ki?

**YAZIÇI** – Mən onları gətirirəm bura, lakin inana bilmirəm ki, həyatda belə şeylər mümkün olsun. Budur, sizinlə əyləşmişəm, amma yenə də inana bilmirəm, hələ də mənə elə gəlir ki, bu ancaq bir yazıçı fantaziyasıdır... Nəyə gülürsünüz?

**QIZ** – Maraqlı paradoksdur. Adətən, oxucular məşhur yazıçı ilə görüşməyi arzu edər və belə bir görüş ona qismət olubsa uzun müddət inana bilməz ki, bu həqiqətdir.

**YAZIÇI** – Mən hardan məşhur yazıçı oldum? Vur-tut bir neçə kitabım çıxıb.

**QIZ** – Bilirəm, yazıçılar həmişə təvazökar olurlar. Ancaq nə üçün gizlədirsiniz? Hamısını oxumasam da, bütün yazdıqlarınızdan xəbərim var. Siz yazıçılar biz oxucuları o qədər də sadəlövh, laqeyd sanmayın. Biz hər şeylə maraqlanırıq. Xüsusən də, yazıçıların, məşhur sənətkarların şəxsi həyatları ilə daha çox. *(Gülümsəyir.)* İstəsəniz, deyə bilərəm bilərəm: siz dulsunuz, arvadınız sizi atıb gedib. Ancaq nə üçün, bunu deyə bilməyəcəyəm. Çox arzu edərdim ki, bu barədə danışaydınız bir az. Əgər sizin üçün çətin deyilsə...

**YAZIÇI** – *(Pauza. Gülümsəyərək.)* Mən başqaları üçün yazıçıyam, arvadım üçünsə yalnız ər olmaq istəyirdim. Mən istəyirdim o mənim timsalımda sadə bir insanı – kişini sevsin. Əksinə oldu...

**QIZ** – Bunu üç il birgə yaşadıqdan sonra başa düşdünüz?..

**YAZIÇI** – İndiki şəraitdə insanları tanımaq çətindir. Yad, uzaq adam olsa, iş bir az asandır. Lakin hər gün görüşdüyün, rastlaşdıqların isə... elə bil adamın gözünü nəsə qamaşdırır, aydın görə bilmirsən, seçə bilmirsən.

**QIZ** – Məni rəqsə dəvət edin.

**YAZIÇI** – Bağışlayın... Öhdəmə düşənləri unutmuşam. Lütfən, buyurun.

**Rəqs edirlər. Sakitcə, dinməzcə.**
**Bir-birinə baxırlar. Baxışlar qarşılaşarkən Qız özünü gülümsəməkdən saxlaya bilmir. Bir dəqiqəyə qədər davam edən bu lal oyunda insanı bir-birinə daha da mehribanlaşdıran, yaxınlaşdıran bir duyğu vardır, onların hər ikisi elə bil bu duyğuya əsir düşüblər.**

**QIZ** – Ətrafdakılar bizə necə də həsədlə baxırlar...

**YAZIÇI** – *(Gözlənilmədən.)* Mənim arvadım olun.

**Qız gülümsəyərək başını bulayır.**

Mən bunu ürəkdən deyirəm.

**QIZ** – Birinci dəfədir görüşürük. İndidən belə bir təklif? Axı indicə dediniz ki...

**YAZIÇI** – Cəhənnəm olsun mənim dediklərim.

**QIZ** – *(Sifəti ciddiləşir.)* Yo-ox... Mən heç kimə ərə getməyəcəyəm. Ömrüm boyu.

**Yazıçı sual dolu baxışlarla baxır.**

Heç kimə inanmıram...

**Yazıçının baxışlarındakı sual bir az da ciddiləşir.**

Mənim ilk məhəbbətim... necə deyərlər, daşa dəydi, parçalandı. Bu adi bir hal deyil... Eh, çətin başa düşərsiniz.

**YAZIÇI** – Siz məni maraqlandırdınız. Danışın, xahiş edirəm. Axı biz yazıçılar belə şeyləri göydə axtarırıq.

**QIZ** – Bu barədə yazmağı məsləhət bilməzdim. Çünki buna heç kim inanmaz. Necə ki, mən, mən özüm inana bilmirəm. Çox qeyri-adi əhvalatdır. Biz necə sevirdik bir-birimizi. Toy günümüz də yaxınlaşmışdı. Birdən... o yoxa çıxdı. Eh, bu uzun əhvalatdır... Axtarışlar, axtarışlar... heç bir iz, sübut-dəlil tapılmadı...

**YAZIÇI** – Dayanın, dayanın... deyəsən bu əhvalatı mən eşitmişəm. O, həkim işləmirdimi?

**QIZ** – Yox, o, jurnalist olmağa hazırlaşırdı. Lakin haqqında eşitdiyiniz həmin həkim ki var, onunla dostluq edirdi. Ilk əvvəl həkim qeyb oldu, bir müddət keçdi... o da...

**YAZIÇI** – Eşitmişəm, eşitmişəm... Həkimin dostu haqqında da eşitmişəm. Demək, o sizin sevgiliniz imiş. Nə qəribə təsadüf... Deyirlər, həkimin arvadı varmış, əri yoxa çıxandan sonra yaman pozulub.

**QIZ** – Mən tanımıram onu. Mənə deyərdi, bir dəfə səni həkim dostumun arvadı ilə tanış edəcəyəm, yəqin ki, siz də dostluq edəcəksiniz. Qismət olmadı bu tanışlıq...

**YAZIÇI** – Deyin, doğrudurmu ki, həkim qaçıb xaricə, sonra isə dostunu da aparıb yanına?

**QIZ** – Hamı bu qənaətə gəlib.

**YAZIÇI** – Bəs siz?

**QIZ** – *(Keçib yerində oturur, bir müddət susub qalır, sonra süzüb içir.)* Mən də inanıram. Onların hər ikisi pul düşgünü idi, şöhrət düşgünü idi. Bu ehtiras onlar üçün məhəbbətdən də, vətəndən də üstün imiş. Neçə dəfə demişdim, bu dünyada heç nədə gözüm yoxdur. Kiçik bir komamız olsun, yeməyə çörəyimiz olsun, vəssalam.

**YAZIÇI** – Onun xaricdə qohumu, dost-tanışı yox idi ki?

**QIZ** – Nə bilim, bəlkə də varmış. Məndən gizlədirmiş.

**YAZIÇI** – Onun son günlərdəki münasibətində, davranışında qeyri-normal bir hal hiss etmirdiniz ki?

**QIZ** – Siz nə üçün məni müstəntiq kimi belə suallara tutursunuz?

**YAZIÇI** – *(Gülümsəyir.)* Yox... Allah eləməsin, mən kiməm ki? Sadəcə, maraqlandırır bu məsələ məni.

**QIZ** – Son günlər o xeyli dəyişmişdi. Daim fikri dağınıq olurdu. Bir-iki dəfə görüşə də gəlib çıxmadı. Səbəbini soruşanda, mənə hirsləndi.

**YAZIÇI** – Məhəbbətinizin səmimiliyinə inanırdınızmı?

**QIZ** – Mən öz tərəfimdən tamamilə - hə. Onun yerinə nə deyə bilərəm ki? Onun ürəyinə girməmişdim ki. Hər halda mənə elə gəlir ki, o da sevirdi. Bəli... siz

özünüz deyin, bundan sonra kimə inanmaq olar? Bir daha məhəbbət yarasına dözəcək halım yoxdur. Bu əhvalat mənim bütün həyatımı alt-üst etdi.

**YAZIÇI** – Bəlkə o heç xaricə qaçmayıb. Bəlkə şəhərdədir, başqa bir şəhərdə... Başına bir iş gəlib bəlkə... Həyatdı da, nə desən ola bilər.

**QIZ** – Bir il olur ki, onun şəkli ölkənin axtarış lövhələrinin daimi qonağıdır. Harda gizlənə bilər və nə üçün də gizlənməlidir? O insandır , əşya deyil. Bu bir il ərzində mütləq üzə çıxmalı idi... Heç nə... sadəcə, mən bədbəxt olub getdim. *(Eynəyini çıxardıb gözünün yaşını silir, sonra içir, eynəksiz baxır.)*

**YAZIÇI** – Eynəyinizi taxın. Sizin gözlərinizdə sifətinizə yaraşmayan bir kədər vardır.

** **
**

**Baş həkimin qəbulxanası.**

**YAZIÇI** – İcazə buyurursunuzmu?

**Həkim eynəyini çıxardıb təəccüblə baxır.**

Bağışlayın. Bağışlayın, tibb bacısı məni buraxmaq istəmirdi, deyir, siz elmi işlə məşğulsunuz, lakin mən inad etdim.

**HƏKIM** – Doğrudur. Klinikamızda ürək üzərində aparılmış tədqiqatların nəticələri haqqında məruzə hazırlayıram. Beynəlxalq konfransda iştirak etməliyəm. Orda bu barədə çıxışım olmalıdır...

**YAZIÇI** – Demək, düz gəlmişəm.

**HƏKIM** – *(İlk dəfə görürmüş kimi qorxaraq.)* Siz kimsiniz? Sizi nə maraqlandırır?

**YAZIÇI** – Qorxmayın. Xatalı adam deyiləm. Mənə həkim lazımdır. Mənə siz lazımsınız. Ürəyim... ürəyim üzülüb qurtarıb. Çox həkimlərin yanında olmuşam. Nəhayət, sizi ünvan verdilər mənə...

**HƏKIM** – *(Sifətində nəsə bir arxayınçılıq, məmnunluq yaranır, hətta dodaqlarında gizli bir təbəssüm də canlanır.)* Cənab, neçə yaşınız var?

**YAZIÇI** – Elə təxminən sizinki qədər. Artıq olmaz.

**HƏKIM** – Siz mənim yaşımı hardan bilirsiniz?

**YAZIÇI** – Niyə, baxanda bilmək olmur?

**HƏKIM** – Yaxşı... İçirsiniz?

**Yazıçı günahkarcasına "hə" mənasında başını yırğalayır.**

Çəkirsiniz?

**YAZIÇI** – Çəkirəm.

**HƏKIM –** Və başqa...

**YAZIÇI –** Yox, heç vaxt...

**HƏKIM –** Nə olub ki sizə, belə cavan yaşında alkoqola, nikotinə qurşanmısınız?

**YAZIÇI –** *(Köks ötürür.)* Eh... hər nə desəm də çətin başa düşərsiniz. Bu halı gərək özün yaşayasan, özün keçirəsən ki, başqalarını da başa düşə biləsən. Dost itkisi... Əlbəttə, bunu heç kəsə arzu etməzdim. Məni başa düşməsələr də eyibi yoxdur. Təki heç kimə qismət olmasın bu dərd. Ürəyim... ürəyim üzüldü qurtardı.

**HƏKIM –** *(Halında nəsə bir dəyişgənlik yaranır, şkafı açır, stolun üstə iki qədəh və bir şüşə rom qoyur, qədəhlərə rom süzür, bir söz demədən qədəhin birini başına çəkir. Onunla üz-üzə oturur, bir müddət dinmir, sonra sakitcə soruşur.)* Necə itib dostunuz?

**YAZIÇI –** *(Onun halındakı dəyişgənliyə təəccüb edir, lakin öz əhvalından ayrılmır, dərin bir xatirəyə dalıbmış kimi danışır.)* Günah məndə oldu. Mən... mən axmaq... heç ağlıma da gətirməzdim...

Qayıqla göldə gəzməyi, balıq tutmağı sevirdi, dəhşət dərəcədə sevirdi. Deyirlər, adamın ölmü, əcəli hardadırsa, o yer həmişə nəvazişlə onu səsləyir, çağırır. Göl də onu çağırırdı. Mümkünü olsaydı, gecə-gündüz gölün üzündən çıxmazdı.

Küləkli bir gün idi. Biz yenə üzürdük. Avarları mən çəkirdim. Dalğalar qayığı atıb-tuturdu. Dostum deyirdi, ver avarları mənə, sən bacarmayacaqsan. Mən isə küləyə heç məhəl də qoymurdum. Birdən qayıq aşdı. Hər ikimiz düşdük suya. Mən qayıqdan yapışıb qaldım, onu... onu isə görə bilmədim bir daha. *( Cibindən siqaret çıxardır.)* Çəkmək olar burda?

**HƏKIM –** Buyurun, buyurun. *(Onun siqaretini yandırır.)* Deyirlər, eyni taleli adamlar harda olur-olsun, mütləq bir-birinə rast gəlirlər. Dost itkisi... mənim də ürəyimin ağrısı deyilmi?

**YAZIÇI –** Necə, siz də bu dərdə mübtəlasınız? Ürəyiniz sizi də çox incidirmi?

**HƏKIM –** İncidir də sözdür? Lakin bir təhər dözürəm.

**YAZIÇI –** Əlbəttə, siz həkimsiniz, ürək xəstəlikləri sahəsində şəhərdə ən yaxşı tibb mütəxəssisi sayılırsınız. Yəqin ki, dava-dərmanını bilirsiniz.

**HƏKIM –** Eh, bu elə bir dərddir ki, heç bir dava-dərman kömək edə bilmir. Sizin dostunuz göldə boğulub. Bu bir təsadüfdir, taleyin acı hökmüdür. Lakin mənim dostumsa... məni atıb xaricə qaçıb. Mən cəhənnəmə, bəs vətən? Bəs başqa dostlar, tanışlar? Bəs ata-ana? Bəs sevdiyi qadın, hansı ki... gənclikdə mən də vurulmuşdum ona. Lakin öz sevgimi dostluq məhəbbətinə qurban verdim. Hələ də unuda bilmirəm onu... Hər gecə yuxuda görürəm... Öz arvadımla yartanda elə təsəvvür edirəm ki, onunla yatıram... *(Pauza.)* Belə bir vəziyyətə nə deyəsən? Ikiqat zərbə: həm itki, həm xəyanət.

**YAZIÇI –** Dayanın, dayanın, deyəsən, sizin dostunuz da həkim idi, sizinlə bir yerdə işləyirdi. Doğrudurmu?

**HƏKIM –** Elədir. Biz hətta bir yerdə oxumuşduq. İşsiz qalmışdı. Əmimi dilə tutdum, o zaman əmim hələ sağ idi, onu işə götürdü. Bir təhər işləyirdi. Əmim rəhmətə gedəndə kilinikanı mənə vəsiyyət etdi. Mən onun üçün əla

şərait yaratdım. Xəstələrinin sayı günü gündən artdı.

**YAZIÇI** – Sözünüzü kəsməli olacağam, yadıma gəlir, bir neçə il əvvəl, deyəsən, mən də onun qəbulunda olmuşdum. Bacarıqlı oğlana oxşayırdı.

**HƏKIM** – İstedadlı idi. Bunu hamı etiraf edirdi. Lakin o, öz istedadını tamamilə başqa bir səmtə yönəltmişdi. Mən onun üçün imkan yaratdım, gedib bir sıra xarici ölkələri də gəzib gəldi, təcrübəsini genişləndirdi, daha da zənginləşdirdi. Son zamanlar çox dəyişmişdi. Bizim iş sisteminin tənqidinə başladı. Başladı danışmağa ki, ay getdiyim ölkələrdə həkimlərə belə qiymət qoyurlar, həkimlər kalan qazanır, nə bilm, daha nələr, nələr... Deyirəm, o dövlətlərin çoxunda təbabət pulsuzdur, həkimlər quruca maaşa baxırlar. Deyir, ay yazıq, sənin dünyadan xəbərin yoxdur, düzdü, bəzi yerlərdə həkimlər rəsmi qaydada pasientlərdən pul almırlar, xəlvətdə, gizlində isə bizdə olduğundan qat-qat artıq qopardırlar. Hər yaxşı insanın bir pis cəhəti olur. O da bir az pul düşgünü idi...

**YAZIÇI** – Onun xaricə qaçdığını mən də eşitmişəm, lakin nə isə, inana bilmirəm, ağlıma batmır. Bu barədə əsaslı faktlar varmı?

**HƏKIM** – Eh... bunlar bizim nəyimizə lazım? Ən əsas fakt odur ki, itirdim onu... Rahatlığımı, dincliyimi də itirdim onunla. Hər halda neçə ilin dostu idi... Dözmək çətindir belə dərdə. Siz də dava-dərman axtarırsınız... Ən yaxşı dərman bilirsiniz nədir? Bu boşluğu doldurmaq. *(Pauza.)* Bəlkə... kömək edək bir-birimizə. Mən sizin ürəyinizdəki boşluğu doldurmağa çalışaram, siz də bunun müqabilində...

**YAZIÇI** – *(Gülümsəyərək.)* Aydındı... Əlbəttə, çox yaxşı olardı. Əgər bacarsaydıq...

**HƏKIM** – Eyni taleli adamlar... *(Xəfifcə gülümsəyir.)*

**　　**
**

**Qiy diyərcəyə dəyir. Diyircək digər daşlara toxunur, daşların arasına yenə çaxnaşma düşür.**
**Polis şefinin məmnun sifəti. Sonra baş həkim oynayır.**
**Stolun bir tərəfindən Birinci qız dirsəklənib siqaret çəkir, oyuna tamaşa edir.**
**Polis şefi yenə zərbə mövqeyi axtarır.**
**Baş həkim qolunu qızın boynuna dolayır.**
**Axtarış lövhəsi.**
**Həkim.**
**Həkimin dostu.**
**Lövhə qarşısından keçən adamlar. Kimsə laqeydliklə ötüb keçir, kimsə ayaq saxlayır, baxır.**
**Yazıçının düşüncəli sifəti.**

**YAZIÇININ SƏSI** – Polis şefilə, nişanlı qızla, baş həkimlə görüşlər mənə xeyli məlumat verdi. Əhvalatla yaxından tanış ola bildim. Lakin bu görüşlərin səmimiyyətinə şübhə də yarandı məndə. Ən böyük şübhə isə...

bu söhbətlərin hamısında eyni şeyi eşitməyim oldu. Qəribədir. Elə bil onlar bir-birilə danışıblarmış, sözü bir ediblərmiş. Kim bilir, bəlkə də onların dedikləri bir həqiqət idi, mənim şübhəm yersiz idi. Öz sadəlövhliyimi qoruyaraq polis şefilə, baş həkimlə bir də görüşdüm. Lakin yenə də... təzə heç nə öyrənə bilmədim, fikirlərim durulmadı. Son ümid həkimin arvadı ilə görüşmək idi. Ancaq nədənsə onlar məni hər vəchlə bu görüşdən yayındırmağa çalışırdılar.

** **
**

**Birinci S O S təkrarlanır.**
**Vəziyyətin bir qədər də kəskinləşdiyi anda qurtarır.**

** **
**

**Qapı. Bir qədər açıq.**
**Yazıçı onun qarşısında donub qalıb. Bilmir qapını döysün, ya elə-belə keçsin içəri. Necəsə bir maraqla, ehmallıca otağa boylanır. Alt paltarında güzgü qabağında dayanıb çiyninə dağılmış saçlarını darayan Qadın sərt hərəkətlə geri dönür və birbaşa Yazıçının üstünə qaçır, onu qucaqlayır, əllərilə onun kürəklərini sığallayır, başını sinəsinə qısaraq için-için ağlayır.**

**QADIN –** Nəhatət... nəhayət ki gəlib çıxdın. Mən bilirdim, mən inanırdım ki, sən gələcəksən. Mütləq gələcəksən. Axı sən məni tək qoyub hara gedə bilərdin? Sən gələcəkdin. Mən səni hər saat, hər an gözləyirdim. Gündüzlər işə getmirdim ki, birdən sə gələrsən, məni evdə görməzsən. Gecələr... gecələr gözümü yummurdum ki, birdən sən gələrsən, xəbərim omaz. Həhayət ki... nəhayət ki, gəlib çıxdın. Demə, mənim bütün şübhələrim əbəsmiş...

**Yazıçı çaşqın halda onu özündən ayırır. Qadın bir müddət donub baxır. Sonra boğuq qışqırıqla qorxa-qorxa geri çəkilir.**

**YAZIÇI –** Sakit olun... sakit olun... *(Yaxınlaşıb onu sakitləşdirmək istəyir.)*

**Qadın daha bərkdən qışqırır, yenə geri çəkilir. Yazıçı donub qalır, təəccüblə, qorxuyla baxır.**

**QADIN –** Siz kimsiniz?! Bura nəyə gəlmisiniz?
**YAZIÇI –** Qorxmayın... Mən xatalı adam deyiləm. Pis niyyətlə gəlməmişəm. *(Baxışları həkimin portretinə sataşır, başı ilə işarə edərək.)* Ondan ötrü gəlmişəm...
**QADIN –** *(Bir an şəklə baxır, yenə Yazıçının üstə qaçır .)* Necə?! Onun yanından gəlmisiniz?
**YAZIÇI –** *(Pauzadan sonra.)* O, hardadır ki?..
**QADIN –** *(Pərişan baxışlarla baxır, başını bulayır ki, bilmirəm. Özü üçün pıçıldayırmış kimi.)* Aman Allah, siz necə də ona oxşadınız...

**Yazıçının nəzərləri portretdə ilişib qalır.**

**YAZIÇI –** Bəs kimdən soruşaq? Hardan öyrənək? Hardadır o?...
**QADIN –** Axı siz kimsiniz? Bir açıq danışın.
**YAZIÇI –** Siz sonsuz iztirab içindəsiniz. *(Yarımtəbəssümlə.)* Mən sizin həyatınıza tale tərəfindən göndərilmiş bir kömək əliyəm. *(Divanın üstündən xalatı götürüb onun çiyninə salır. )*

**Qadın alt paltarında olduğunu sanki indi görür, tələsik xalatı geyir.**

**QADIN –** İnanmıram... Bu dünyada heç kimin, heç kimin, hətta Allahın belə mənə rəhmi gəlmir.
**YAZIÇI –** Elə deməyin. İnsan axı heç zaman kimsəsiz olmayıb. Hardasa, haçansa mütləq onun halına yanan bir kimsə tapılmalıdır. *(Pauza. Ciddi bir şəkildə.)* Mən yazıçıyam... Yazılarımda həmişə insanları haqsızlıqdan qorumağa çalışıram. Nəinki yazılarımda, hətta həyatda da yaxşı insanların taleyinə görə narahat olmaya bilmirəm.
Mən sizi tanıyıram. Inizi də tanıyıram. Siz bir yerdə işləyirdiniz, həkimlik edirdiniz. Bir-birinizi hədsiz sevirdiniz. Lakin günlərin birində... əriniz qeyb olub. Siz amansız bir ayrılığa düçar olubsunuz. Mən sizə kömək etmək istəyirəm. Bununla əlaqədar bir sıra adamlarla görüşmüşəm. Lakin nədənsə onların dedikləri məni qane etməyib, inandırmayıb məni. Sizinlə də görüşüb söhbət etməyi lazım bildim.

**Qadın qorxudan titrəyir, divana çöküb oturur.**

*(Onun yanından aylaşaraq.)* Sizə nə oldu birdən-birə?
**QADIN –** Məni sinənizə qısın. Mənə soyuqdur. Mənim bütün bədənim əsir.
**YAZIÇI –** *(Qadının necəsə qeyri-adi bir hal keçirdiyini hiss edir və bilmir nə etsin, nəzərləri stolun üstündəki viski şüşəsinə sataşır, bir badə süzüb ona verir.)* İçin... keçib gedəcək.
***QADIN –*** *(Dinməzcə içir.)* Birini də verin...

**Yazıçı daha bir qədəh də viski süzür.**

*(İçir.)* Siz də için. Cəsarətə gəlin. Sizə bir söz demək istəyirəm.

**Yazıçı da içir.**

Mən sizin yazdıqlarınızı oxumuşam, indi xatırlayıram. Siz mənim nəzərimdə əsil insan etalonusunuz. Siz hamı üçün lazımlı adamsınız. Həyatınıza heyfiniz gəlsin. Əl çəkin bu işdən. Axtarmayın onu. Siz özünüz də yox ola bilərsiniz. Bu çox qorxulu işdir. Onun dostu vardı. O da axtarırdı. Onun özü də qeyb oldu. Mən özüm də...az qala... yox olmuşdum. Məni daim naməlum adamlar izləyirdi. Görünür, qadınlığımı nəzərə alıb... məni bağışladılar. Axtarmıram daha. Əlacım yalnız gözləməkdir. Bir duyğu mənə deyir ki, gözlə, o gələcək, mütləq gələcək.

**YAZIÇI** – *(Siqaret yandırır, fikrə dalır.)* Sizcə, o, harda ola bilər?

**QADIN** – Soruşmayın! Soruşmayın... Mən bu sualın cavabını unutmaq istəyirəm. Mən bu sualın cavabına inanmaq istəmirəm. Əqlim, mühakiməm başqa şey deyir, ürəyim isə, hissim, duyğum isə mənə təsəlli verir. Soruşmayın, soruşmayın, öldürməyin işıqlı duyğularımı. Onlar məhv olsa, mən də məhv olmuşam deməli. Məni yaşadan yalnız onlardır.

**YAZIÇI** – *(Uzun müddət susub qalır, sonra çətinliklə soruşur.)* Kimdən şübhələnirsiniz?

**QADIN** – Hamıdan, hamıdan... bütün insanlardan...

**YAZIÇI** – Ən çox?

**QADIN** – *(Çətinliklə.)* Klinikanın... baş həkimindən.

**YAZIÇI** – Eşitdiyimə görə axı onlar dost olublar.

**QADIN** – Tələbə vaxtında. İşə başladıqdan sonra... bu dostluq ancaq bir pərdəyə çevrildi. Və o, bu pərdənin arxasında gizlənib əsil düşmən kimi hərəkət edirdi.

**YAZIÇI** – Maraqlıdır... Bəs səbəb? Mən öyrənmişəm ki, onun da sizə simpatiyası olub, lakin siz ona laqeyd qalmısınız. Nəticədə, o başqa qadınla evlənib. Bəlkə elə buna görə...

**QADIN** – Bu da səbəbdir... Lakin ən çox... Klinika onun əmisinin idi. Bizi də o, əmisinin köməyilə işə düzəltmişdi. Buna görə də istəyirdi ki, ərim hər şeydə ona güzəştə getsin. Əmisinin ölümündən sonra – hətta bu qəfil ölüm də hamını şübhəyə saldı – klinikada bir nömrəli adam olmaq istəyirdi. Bundan ötrü müxtəlif hiylələrə əl atırdı. Ərimi təcrübə adı ilə tez-tez xarici ölkələrə göndərirdi. Təkliyimdən istifadə edərək məni özünə məşuqə etmək istəyirdi. Mən onu biabır elədim.

Ərim xəstələr arasında ondan çox nüfuz qazanmışdı. Gözü bunu götürmürdü. Gizli surətdə hər yerdə, hər işdə bizə təzyiq göstərirdi. Bizi klinikadan qovmağa hazırlaşırdı. Yaxşı adamların təsirindən bu planını həyata keçirdə bilmədi.

**YAZIÇI** – Nə üçün bəs bütün bunları bu vaxtadək gizlətmisiniz?

**QADIN** – Nə edə bilərdim? Polisə getdim. Məlum oldu ki, polisin şefi onun əmisinin dostu imiş. Kiçik şəhərdir, hamıynan münasibəti var, əlaqəsi var. Mərkəzə yazdım. Faktları yoxlamaq üçün nümayəndələr gələrkən məni tutub dəlixanaya saldılar. Mənim yazdıqlarımı ərini itirdikdən sonra psixi sarsıntılar keçirən bir qadının sayaqlamaları kimi yozdular. Adıma saxta sənədlər düzəldiblər. Mən dəliyəm, mənim başım xarab olub. Başa düşürsünüzmü bunu, mən dəliyəm, kim inanar mənə? Kim? Kim?!.

**Qadın danışmağına davam edir. Gözlərindən yaş axa-axa, əl-qol ata-ata səssizcə danışır.**
**Yazıçı fikrə dalıb.**

YAZIÇININ SƏSI – Anlaşılmaz bir vəziyyətə düşmüşdüm. Kimə inanmalıydım? Bu vaxtadək görüşdüyüm rəsmi, vəzifəli adamlaramı, yoxsa bu bədbəxt qadına?.. Bəlkə bu qadın doğrudan da ərini itirdikdən sonra sayaqlamağa başlamışdı. Axı onun hərəkətləri, özünü aparması tamamilə qəribə idi. Burda məntiq də vardı. Sevdiyin adamın birdən birə sirli şəkildə yoxa çıxmasından sonra hamıdan şübhələnmək olar. Ürəyinə min fikir gələ bilər.
Mən onu sakitləşdirməyə çalışdım. Bəlkə bütün bunlar yalnız ona belə görünürdü. Bəlkə bütün bunların doğrudan da əsası yox idi. mən bunları onun özünə də dedim. Qadın "Əlbəttə, siz də mənə inanmazsınız, dəlinin dediklərinə kim inanar?" deyib yenə bir qədəh viski başına çəkdi. Elə bu an..

**Ikinci qız qapıda görünür.**
**Sadə geyinib, paltarında nəsə bir məhzunluq var.**
**Çaşqın halda qapı ağzında dayanıb baxır.**

QADIN – *(Kədərli.)* Gəl , əzizim...

**Ikinci qız stola yaxınlaşır. Əlindəki zənbildən çörək çıxardır, yemək çıxardır, bir şüşə içki çıxardır. Heç kimə məhəl qoymadan şüşəni açıb bir qədəh içir. Qollarını sinəsində çarpazlayıb divara söykənir, baxışları bir nöqtəyə dikilir.**

*(Yazıçıya.)* Tanış olun... Yeganə təsəllim, həyatda yeganə dərddaşım... Eynilə mənimtək bədbəxt məxluq... Ərimin dostu vardı ha, haqqında sizə danışdığım... Onun nişanlısı...

YAZIÇI – *(Böyük təəccüblə.)* Necə?... Nişanlısı? Lap qanuni?

QADIN – Bu necə sualdır?

YAZIÇI – ...Bağışlayın. Məm... mən bir qız tanıyırdım, gərək ki... o idi ərinizin dostunun nişanlısı.

QADIN – *(Dodaqlarında istehzalı bir təbəssüm.)* Bunu kim uydurub?..

**Qız dərindən köks ötürüb kresloya oturur, siqaret yandırır, yanındakı maqnitafonun düyməsini burur.**
**Çox həzin, çox məhzun bir melodiya otağa yayılır.**
**Baxışları yenə harasa uzaqlara dikilir.**

Əzizim... Sən cənab yazıçını tanıyırsanmı? Danış məhəbbətinizdən... Görək hansı dahi yazıçının qələmi belə bir məhəbbət yaratmağa qadirdir...

**Qız deyəsən ağlayır.**

Ağlama, əzizim... *(İçir, ağlamsınaraq.)* Kimdi bizim kədərimizə inanan? Qara fikirləri qov başından. Ümidi özünə məbədgah elə. Rahibətək

yaşa orda, ömrün son gününəcən. Müqəddəs bir inam xatirinə. Bəlkə doğrudan da hardasa insanlarda hələ insanlıq qalıb. Bəlkə doğrudan da günlərin birində o qayıdıb gələcək... Onlar qayıdıb gələcəklər...

yazıçının çaşqınlıq, heyrət, təəccüb ifadə edən sifəti.

** **
**

Həmin sifət digər kadra keçir. Burda isə çaşqınlıq, heyrət, təəccüb əvəzinə qorxu, dəhşət...
Tapança, bıçaq, adam boğmaq istəyən əllər sifətin lap yaxınlığındadır daha.
S O S sirenası davam edir.
Polis şefi yatağında otururaraq əlllərilə başını tutub. Götürüb nəsə bir dərman atır.
Birinci qızın yatağı. Baş həkim uzanıb. Qız çılpaq qolunu onun sifətində gəzdirir.
Baş həkimin gözləri yol çəkir. Qəfildən dikəlir, soyuqdan əsirmiş kimi titrəyir. Siqaret odlayır.

TİTRLƏR:

| | |
|---|---|
| Pyesin müəllifi: | Füzuli YAVƏR |
| Quruluşçu rejissor: | ............. |
| Rəssam: | ............. |
| Musiqi tərtibatçısı: | ............. |
| Operatorlar: | ............. |
| | ............. |

Və sairə.

======================== ser.f.yaver@mail.ru ============================